

## GÜLƏR ELDARQIZI

# NAĞIL ÖMÜR

Uşaq vaxtı qar yeyərdim, yağanda,
Uşaq qəlbim şadlanardı sevincdən.
Nə biləydim tale məni sıxanda
Könlüm olar bir yetim quş, sevinc dən.

Yadımdadır, üşüməzdim qışda da,
Bir hərarət duyulurdu hər üzdən.
İnsan uşaq olarmış qırx yaşda da,
Üşüyərmiş buz baxışdan, qar üzdən.

Qar adamı düzəldərdik həyətdə,
Gün çıxanda əridərdi "adamı".
İndi məni üşüdür bu həyat da,
Gün də vurmur könül adlı odamı.

Qar yağardı, budaqları əyərdi,
Deyərdilər bu hikmətdir, ağıldır.
Onda mənə nənəm nağıl deyərdi,
Artıq ömrüm başdan-başa nağıldır.

Nağıl ömrün bitməyinə az qalıb,
Taleyimə üç alma da düşəcək.
Payız ötüb, qış gəlibdir, yaz qalıb,
Son baharım üç almada düşəcək.

Uşaq vaxtı qar yeyərdim, yağanda,
Uşaq qəlbim şadlanardı sevincdən.
Nə biləydim tale məni sıxanda
Könlüm olar bir yetim quş, sevinc dən.

# BƏLKƏ SƏNİ UNUDARDIM HARDASA

Bahar gəlir, yenə açır çiçəklər,
Yenə torpaq sevgi rəngə boyanır.
Hər tərəfə ətir saçır çiçəklər,
Ürəyimdə xatirələr oyanır.

Qəlbimizə sevgi dolan yerdəyəm,
Sevgimizlə bu çəmən tən, çiçək tən.
İk görüşə şahid olan yerdəyəm,
Ətrin gəlir çəməndə hər çiçəkdən.

Xatırladır burda səni hər çiçək,
Bir çiçəkdə əllərinin ətri var.
Nəfəsindir çəməndəki tər çiçək,
Hər çiçəkdə sevgimizin xətri var.

Bu mənzərə ürəyimi qoparır,
Qonur yenə hər ləçəyə kəpənək.
Bəlkə sevgi məktubunu aparır
Bu çiçəkdən o çiçəyə kəpənək.

Əzəl gündən belə olub, qalacaq,
Sirlər dolu bu yer nədir, göy nədir?
Qəlbim yenə xatirənə dalacaq,
Yenə həsrət ürəyimi göynədir.

Həsrətimi ovudardım hardasa,
Ürəyimi dəlməsəydi bu bahar.
Bəlkə səni unudardım hardasa,
Bəlkə bir də gəlməsəydi bu bahar.

# ACI XATİRƏ

Əqrəbdən asılıb, dayanmışam ki,
Sənli günlərimi saxlaya bilim.
Geriyə dönməyə üzüm yox artıq,
Elə bir söz de ki, ağlaya bilim...

Acı xatirə də şirin dadarmış,
Hər dəfə yadına salıb duyunca.
Deyirlər sevgini elə yaşa ki,
Yandırsın qəlbini ömür boyunca.

Kimin məhəbbəti sonacan yetib...
Kimin arasında söz olmayıb ki...
Gümansız, şübhəsiz ömür yetişməz,
Günahkar ürəkdir, göz olmayıb ki...

Sən mənim ömrümə elə hopmusan,
Bütün təqvimlərdə görürəm səni.
Əksin möhürlənib baxışlarıma,
Divar saatına hörürəm səni.

## QƏFİL GEDİŞİNİ BAĞIŞLAMIRAM

Çox məətəl qalmışam indi halıma,
Sənsiz günlər ötür, yeni ay gəlir.
Demək mənim səbrim dağ boyda imiş,
Bu qədər ağrını əridə bilir.

Bilmirəm gecədir, yoxsa ki səhər,
Yuxu kipriyimdən ötrü darıxıb.
Səni itirdiyim o gündən bəri,
Tarix də, təqvim də yadımdan çıxıb.

Biz ki tən bölərdik bütün cahanı,
Sənin öyüdlərin mənə tac idi.
Ürəyim sevgindən ilham alsa da,
Gözlərim gözündən hələ ac idi.

Müdriklər alqışla köçər həyatdan,
Əllərim quruyub, alqışlamıram.
Nə haqqın vardısa halaldır, təkcə
Qəfil gedişini bağışlamıram.

## DOĞMA AĞAC

İndi küçələr də qərib görünür,
O tanış yollarda izim qarışır.
Üşüyür parkdakı o tənha ağac,
Hər gəlib gedəndən bizi soruşur.

Neçə kürək çəkib özünə sarı,
Dərdi uda-uda hey yaşa dolub.
Küsüb-barışanın halına yanıb,
İsti öpüşlərin şahidi olub.

Bu ağac daha o ağac deyil ki,
Hər fəsil gözümdə ölüb, dirilir.
Sən demə, ürəklər qoşa yananda
Qurumuş budaq da gözəl görünür.

Yox olsun, küləklər qoparsın kökün,
Silinsin üstünə yazdığım ad da.
Elə sanaram ki xəyaldır ömrüm,
Gəlməyib dünyaya adam mən adda.

Bu gün həsrətimin doğum günüdür,
Yanına getməyə bəhanəm yoxdur.
O ağac mənim tək tənha deyil ki,
O ağac altında görüşən çoxdur.

İndi küçələr də qərib görünür,
O tanış yollarda izim qarışır.
Üşüyür parkdakı o doğma ağac,
Hər gəlib gedəndən bizi soruşur.

## SƏSİN BİTMƏSİN

Quruyub dodağım, quruyub dilim,
Suya həsrət qalan çiçəklər kimi.
Tək bircə kəlmə de özümə gəlim,
Ruhum sənə yetsin mələklər kimi.

Yoluna tökülən acı göz yaşım
Titrədər könlümü, lərzəyə salar.
Dərdə düyünlənən çatılmış qaşım
Üzümdə əbədi əmanət qalar.

Dediyin hər sözdən alaraq fayda,
Saxlaram yadımda, səsin bitməsin.
Qar yağsa, yollara eşqimiz boyda
Bir çətir tutaram, izin itməsin.

## HƏLƏ SƏNSİZLİYƏ ALIŞMAĞIM VAR

Necə amansızdır bu həyat yolu,
Səni aramızdan vaxtsız apardı.
Ürəyim gileylə, güzarla dolu,
Gedişin içimdə tufan qopardı.

Hələ sənsizliyi duyub, anlamaq,
Hələ sənsizliyə alışmağım var...
Hələ için-için qovrulub yanmaq,
Hələ yoxluğunla barışmağım var...

Zamanla dil tapıb danışa bilsəm,
Qaytararmı görən itən illəri?
Küsmüş yaddaşımla barışa bilsəm,
Gözümə köçürər ötən illəri!

## SƏSSİZ XATİRƏ

Bürüyüb ruhumu səssiz xatirə,
Xəyala dalıbdır lal baxışlarım.
İndi küçələrdə sənsiz xatirə,
İndi ürəklərdə var naxışların.

Deyirdin ayrılsaq kədərə dalma,
Dərdin hər üzünü görüb, gedirik.
Bütün görüşlərin sonu ayrılıq,
Həsrəti yollara hörüb, gedirik.

Sən xoşbəxt insansan yaşamasan da,
Adını dillərə köçürüb, getdin.
Qəlblərə yazdırdın əziz adını
Ruhunu göylərə uçurub, getdin.

İtirib ritmini, qırıq val kimi
Kədərə baş əyib, döyünür ürək.
Sənə zərrə-zərrə qovuşmaq üçün
Adını şeirdə yaşadım gərək.

## YENƏ GÖRÜŞƏRİK

Evin bucağında isti xatirə,
Sənin nəfəsinin qoxusu gəlir.
Baxıb axtarıram baxışlarını,
Kövrək xəyalların yuxusu gəlir.

Gözümü yumanda isti yay günü,
Açanda payızın üzü görünür.
Sənsiz otaqlar da sıxıcı, soyuq,
Sənsiz bu dünyam da qəmə bürünür.

Çayım da soyuyub, süfrədə qalıb,
Daha yeməyin də dadı bilinmir.
Qələm də qaşını çatıb, inciyib,
Yazdığım yazının adı bilinmir.

Yenə görüşərik, qoy sağlıq olsun,
İnsan istəyinə çatar, istəsə.
Rəssamtək bir boya, bir fırça ilə
Ömrünə milyon rəng qatar, istəsə.

## OLMAZ

Bağa baxmasan saralar,
Solar, bağ olmaz, bağ olmaz.
Dağ Ağrı olar, candakı
Ağrı dağ olmaz, dağ olmaz.

Bu al günü, ala günü,
Yaman günə qala günü!
Bir-birinə cala günü,
Ötən çağ olmaz, çağ olmaz.

Üzümüzə gülən bilər,
Gözümüzü silən bilər,
Bu həsrətlə bilən bilər
Canım sağ olmaz, sağ olmaz.

Dini para adamların,
Nəfsi yara adamların,
Qəlbi qara adamların
Üzü ağ olmaz, ağ olmaz.

## SƏNSİZ SƏSİM BOĞULUR

De hardasan, əzizim,
Sənsiz səsim boğulur.
Bilirsən, sevənlərin
Ruhu əkiz doğulur.

Sözləri qoşa, doğma
Rəngləri həmrəng olur.
Duyğuları da eyni
Bəstəsi ahəng olur.

İndi uzaqlardasan,
Bilirəm yəqin bunu.
Çünki yetim könlümün
Ərimir buzu, donu...

Bir azca düşün məni,
Hiss edim nəfəsimdən.
Darıx ki, azad olum
Sənsizlik qəfəsindən.

Bax görürəm, indicə
Mənə məktub yazırsan.
İlk sətiri qürurdur,
Yazıb, yenə pozursan...

Yuxuların qarışıb,
Fikrin orda-burdadı.
Özünü axtarırsan?
Qayıt, burda, burdadı.

## AYRILIQ

Ayrılıq bir rəsm ki,
Al-yaşıl rəngi pozuq.
Elə bir musiqi ki,
Ritmi, ahəngi pozuq...

Boş şübhələr, gümanlar
Yeyib bitirər ömrü.
Ayrılıqdan kim anlar,
Salıb itirər ömrü.

Bilməzsən axşam nə vaxt,
Səhər nə vaxt açılar.
Üfüqdən gözlərinə
Dəli həsrət saçılar.

Çiçək bilib könlünə
Arı - kədər daraşar.
Bəlkə də sevənlərə
Elə həsrət yaraşar.

## SƏNİN SÖZLƏRİNDİR

Sevgimizin qarğışı,
Alqışı da sənindir.
Bu yağan yaz yağışı
Qəlbin kimi sərindir.

Sənsiz qəlbim üzülən,
Yoluma qəm düzülən.
Gözlərimdən süzülən
Gövhərindir, zərindir.

Həsrət məni yaxanda,
Gecə göyə baxanda,
Pəncərəmə baxan da
Ulduz yox, gözlərindir.

Eşq yozduğum şeirlər,
Yol azdığım şeirlər,
Mən yazdığım şeirlər
Həm sənin sözlərindir.

Çərpələngtək uçurum,
Qəlbi sənə köçürüm.
Aramızda uçurum
Xəyal qədər dərindir.

## HAMI GÜNAH İÇİNDƏ

Hamı günah içində,
hamı ora getmək istər.
Ömürlər bir ah içində,
ömürlər sona yetmək istər.
Hardadır cənnət?!
Milyon-milyon illərdir
ona doğru yol gedirik.
Misqal-misqal ümidlərlə,
şübhələrlə bol gedirik.
Bu dünyadakı yorğunluğumuz
cənnətdə çıxar deyirik.
Savabımız ağır gələr,
günahı yıxar, deyirik.
Fəqət,
yorulduq, söküb atmaq üçün
gücümüz yetmədi
Yerin, göyün dayaqlarına.
Qovuşa bilmədiyimizi anlayıb,
atdıq cənnəti
Anaların ayaqlarına.

## MƏN HEÇ UŞAQ OLMAMIŞAM

Mən heç uşaq olmamışam,
Böyük gəlmişəm dünyaya.
Bu həyatın acısını
Bilib gəlmişəm dünyaya.

Mən heç uşaq olmamışam,
Eşitmədim nağılları.
Acıyla birgə dadmışam
Şirin-şəkər noğullları.

Mən heç uşaq olmamışam,
Duymamışam laylaları.
Yuxulara qonaq olub
Ana-ata qayğıları.

Mən heç uşaq olmamışam,
Uşaqlığım içimdədir.
Dünyanın ağ-qara donu
Qəlbimlə bir biçimdədir.

Mən heç uşaq olmamışam,
Bu nə qismət, bu nə sirrdir?
Həyatın ən ağır yükü
Dərdimlə tarazdır, birdir.

Mən heç uşaq olmamışam,
Uşaq olmaq istəyirəm.
Pisi, yaxşını bilmədən
Uşaq ölmək istəyirəm.

## QAR ŞƏKLİNDƏ

Qəm qəlbimi dələndi,
Köksümdə kündələndi.
Həsrətin dənələndi
Yoluma nar şəklində.

Nə ölüyəm, nə diri,
Kiri, bivəfam, kiri!
Varmı insafsız biri
Sənintək yar şəklində?

Qürurumu, gəl, əyim,
Vüsalındır gərəyim.
İnildəyir ürəyim
Bir kaman-tar şəklində.

Gözüm həsrət qoxuyur,
Ömrə kədər toxuyur.
Sənə nəğmə oxuyur
Dil ahu-zar şəklində.

Nədir suçum, günahım,
Qəm saçır hər sabahım.
Göyə ucalan ahım
Ələnir qar şəklində.

## BİR NƏĞMƏ OXUDUM SƏNƏ

İstəmirəm qovuşaq biz,
Nolar, incimə sözümdən.
Bir gün hər şey adiləşər,
Sevgimiz düşər gözümdən.

Hər şeyin bir sonu vardır,
Sevgi də yetməz başatan.
Hər gün sənə qovuşmağa
Ümiddir məni yaşadan.

Bəlkə sənin ürəyində
Od olub, birdən sönərəm.
Bəlkə gözlərindən düşüb,
Mən də bir heçə dönərəm.

Mənim kimi sən də hər gün
Qəlbinə qəm toxudunmu?
Heç qovuşanlar haqqında
Nağıl, dastan oxudunmu?

Bu sevgi elə ilk başdan
Qəlbin narahatlığıdır.
Yoxluğun elə yoxluğum,
Varlığın da varlığımdır.

Bir nəğmə oxudum sənə,
Demə ki, boş, hədər səsdi.
Elə uzaqdan uzağa
Sevmək, sevilmək də bəsdi.

Bir gün hər şey adiləşər,
Sevgimiz düşər gözümdən.
İstəmirəm qovuşmağı,
Nolar, incimə sözümdən.